# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



1/7/2023

## BU SAYIMIZDA


Taman Yaralı / Elnən Olan Dərd Deyil / 3
Kadriye Kırdök / Arafta Bekliyorum / 4
Ayşe Ünüvar / Dağılmış Defter / 5
Şahnaz Şahin / Sən Gəldin / 6
Əzizə Ağahüseynqızı / Mən Şeir Deməyə Qaçıb Gəlmişəm / 7
Esmira Günəş / Məlhəm / 8
Maşide Aydoğan Dinçer / Bizim Evin Halleri / 10
Kazımova Kövsər / Hüseyn Cavidin “İblis”, Höte’nin “Faust” Əsərlerində İblis Obrazının Təhlili / 11
Esmira Mahalqızı / Söz / 14
Sərvanə Dağtumas / Aqşin Xəyalın “Mənim Erməni Oğlum” Əsərində Ananın Mənəvi İztirabları / 15
Tamara Sadıq / Boş Qalıp / 15
Mələk İsmayil / Həyat Niyə Beləsən Sən / 16
Zeynep Sümer / Sebebi Sensin / 17
Go’zal Ismatova / İkki Begona / 18
Nailə Şahverdi / Ucalır Göylərdə Şanlı Bayrağın / 19
Lutviyyə Əsgərzadə / Bu Gecə / 20
Zərəngiz Dəmirçi Qayalı / Qələbə Köynəyi / 21
Səringül Sadə / Dilim Mənim / 22
Həvva Nazim / Qələbələr Çala / 23
Səidə Əliyeva / Vaxtında Tanı / 24



**T Ü R K A Y**

**aylıq ədəbiyyat dərgisi**

**Baş redaktor** Lütviyyə Əsgərzadə

**Məsul katib** Tayyib Atmaca **Sosial yayına məsul** Sona İntizar

**Üz qabığı rəsmi** Ülviyyə Həmzəyeva

**E mail** turkayedebiyat@gmail.com

**7 Say İyul 2023**

## Taman Yaralı

# Elnən Olan Dərd Deyil

Düyğularım oyanıb,
Sənli gündə dayanıb.
Tamam, oyanmır-getmir,
Xəyalim xəyallanıb.

Yaşa, müstəqil bayraq!
Əsirlər yaşın olsun.
Qarabağda əs bayraq!
Düşmanın xəcil olsun.

Əzizinəm Qobustan.
Daş yaddaşı Qobustan.
Hər daşı, qayasıdı-
Canlı tarix Qobustan.

Gözündəki qığılcım,
Ürəyimə sıçradı.
Alovlanıb  atəşim,
Daxilimi qarsadı.

Əzizim, dərindədi,
Axtarma, dərindədi.
Ortaq etməm Tamamı,
Dərdim ürəyimdədi.

Əzizim,  dərddən uzaq.
Olasız dərddən uzaq.
Elnən olan dərd deyil.
Dostdan olmasın tuzaq.

Əzizim, dağlar sarı,
Yolumdu dağlar sarı.
Orda yolum gözləyir.
Ana-ata məzarı.

Bulaqların yolu bağlı.
Ürəyin özü dağlı.
Nəhrə, cəhrə, tabaq yox.
Nənəm yadigarları.

Motal papağı olsun.
Alnında tər parlasın.
Altında at kişnəsin,
Kişi çəkin, kişi tək.

Əzizim, dərd köynəyim,
Gen biçin dərd köynəyim.
Yığıb dərdlərim hamsın,
Yaxasın düymələyim.

Əsir, itkin el ağlar.
Tənha gəlinlər ağlar.
Asılmamış nəhrələr-
Sağılmamış mal ağlar.

Atalar ay atalar,
Əziz olur atalar.
Təzə eşqə düşəndə,
Qızı atar atalar.

Babaların  kərkisi,
Kərəntisi, törpüsü.
Motalpapaq-börgüsü
Miras qalıb dirəkdə.

Kotan  çəkən babalar.
Tuman geyən nənələr.
Yuxa yayan analar.
Orda qalıb anılar.

## Kadriye Kırdök

# Arafta Bekliyorum

Söylesene bu bir yalan
Ağarmış olamaz tepemdeki saçlar
Oysa hala yaşanmamış yılların hasretindeyim
Oysa ben
Arsenik tadı hüzünlerin, iyileşmeyen yaraların
İzini sürmekteyim
Şimdi kızacaksın biliyorum
Tütünü çoğalttım biraz, kahveyi de
Gerçeğe uyanacağım diye geceleri uyumuyorum
Yalana sarılıp, öylece yatıyorum
Ağlarsam nağmerdim
Zamanın boynunda mağrur bir gerdanlık çocukluğum
Kulağımda çamurlu misket şakırtıları
Bu arada sen öldün, biliyor musun
Köşede birkaç kadın, birkaç erkek
Az sonra daldıkları dedikodudan başlarını kaldıracaklar
Kim ölmüş, kimin bu cenaze
Bir hazan gecesiydi işte, kasımın bilmem kaçı
Soğuktu yani, çok soğuk
İçerde keskin bir kasımpatı kokusu
Sevmiyorum o yüzden kasımpatıları
Sevmiyorum dediğime bakma
Bunlar hep sitemden
Haberin var mı, öldün sen
Ben ağlamadım
Ağlasam başkaları da ağlayacaktı
Buna dayanamam bilirsin
Ben seccade başı ağıtlara sığındım
Ne çok bulut kovaladım
Ardındaki güneşe dokunabilmek için
Güzel günler yalanına ne çok inandım
Bilmezsin sen, bilme zaten
Rağmenlere sığınıp elif gibi durmayı
Titreyen dizlerimle yol almayı
Bilmezsin, bilme bence
Bir de kederli ölüler varmış arafta bekleyen
Sanırım arafta bekliyorum
Ölü müyüm ben
Yokluyorum garabet bedenimi
Hayır, henüz değil
Öldün sen, biliyor musun
Bir sonbahar gecesiydi, soğuk çok soğuk

## Ayşe Ünüvar

# Dağılmış Defter

Ne varsa uçmaya başladı. Güze kalmış dikenler, kurumuş mantarlar, sararmış yapraklar ve zaman… Zaman kendi içinde kayboluyormuş gibi bir şey oldu. Tarih akar gibi. Bilinç kayar gibi. İnsan derini anlar gibi bir şey… Gökyüzüne dağılan sayfaları gördüm önce ve ne olduysa o vakit oldu işte! Arabadan indim, koşmaya başladım. Yol kenarındaki dikenlerin tepesine takılı onlarca kâğıt. Sayfalar boş değil. Kareli bir metot defteri bu. Ne başı belli ne de sonu. Parça parça kâğıt. Kağıtlar yazılı. Mavi dolmakalemle yazılmış. Oldukça zarif bir el yazısı. Kadın olmalı. Üniversite yolundayım. Bir öğrenci belki. Bir kız öğrenci. İtinalı yazılar, rüzgârın getirdiği yağmur çimkelerinde dağılıyor. Bulduğum her kâğıdı toplamaya başlıyorum. Rüzgâr sertleşiyor. Zaman başkaları için akıyor da benim için duruyor gibi bir his. Tükenmiş gibi kalakalıyorum. Belki yüzlerce sayfa geçip kalmış ya bir diken başına ya kuşburnu dalına ya fabrikanın tel örgüsüne ya da okulun karşısına izinsiz park edilmiş arabaların sileceklerine! Sileceklere takılsın kalsın, hoyrat bir rüzgârın getirdiği yağmurla mürekkebi akıp gitsin diye yazılmamış elbet bu inci gibi el yazısı. Elime geçen kağıtlarda rast gelen kelimelerden anladığım kadarıyla koskoca bir acı düşülmüş bu deftere… Acımayan acı! Ele kalmış acı. Elin bulduğu, bağrına basmak istediği acı. O el benim! Yüreğimde kanayan bir şey var. Rüzgâr çıktığından beri kanayıp durdu bugün. İçimde bir başkasının giyip unuttuğu, çıkarıp attığı, saklayıp kaybettiği, bir şey var. Küllerin altında bir şey. Ne zamandır unuttuğum bir şey! Hangi defterimi yakmıştım? Yırtık pırtık edip çöpe atıp tekrar alıp tepelerden rüzgarla savruluşunu izlemiştim? Diz boyu kar yağdığı gün nereden gelmişse gelmiş bir habere kanıp ayaklarımın ciciği çıkıncaya kadar sarı tomurcuk bir gül aradığım gün! İşte tam da o gün geldi aklıma! Baktığın her yerde ayak izlerimi bıraktığım halde senin görmediğin o iz! O iz hiç yoktu biliyor musun? Sen görmediğin için yoktu! Görmek istemediğin için. Gülü aramaya çıkıp bulamadığıma seni inandıramadığım için yoktu. Sen inanmadığın için yoktu… O yeşil yolda bisiklete bindiğimiz gün, üzerimdeki çiçekli yeşil bluza bakıp yeşil mi seviyorsun dediğinde; Severim evet ama en çok sarıyı dediğimde sarıyı aklına kazıyıp Türk Filmlerinde hep sarı giyen Kartal Tibet'i kıskandığın günle bugün aynı gün değil. Köprünün altından çok sular aktı. Keşke akmasaydı demiyorum! İyi ki aktı ve sen sürüklenip gittin. Tutunmak istemedin. Tutunmak fıtratına tersti. Tutmak da. Su akar yolunu bulur felsefenle, benim felsefemin çatıştığını çok geç anladım. Oysa sen anlayıp da çoktan kaçmaya başlamıştın! Gün gün seni yazdım ak sayfalı bir deftere. Yazılar bir üste bir alta kaydı. Defter ne kareli ne de çizgiliydi. Mürekkebi yağmura kapılan bu defter kareli ama duygular aynı! Belki onlarca yıl geçti ama acı aynı! Ayrılık da. Yalan da. Felsefesizlik de… Senden ne kadar çok varmış meğer! Söz verip unutan. Hediye ettiği kitaptan tek kelime okumayan! Oysa "Kitap hediye eden bir adam iyi adamdır" Demişti ablam! Demek o da yanılmış. İyi adamlar kendisi hakkında yazılan defterlerin dağılmasına izin vermezler… Bu adam da iyi bir adam değil… Yağmur söyledi bunu. Şu hoyrat rüzgarla gelen yağmur. Şehirden uzaktaki, dikenlerin, mantarların, alıç ağaçlarının ve üniversite yolunun üzerine düşen yağmur. Çiğ bu yağmur ve soğuk. Bazı yağmurlar ılıktır ve bir şeyler anlatır. Sevgi gibi tutunmak gibi tutmak gibi yürümek gibi bir şeyler… Biz seninle hiç ılık yağmur görmedik. Bundandı hep kavga etmemiz. Birbirimizi hiç anlayamamız. Uzun uzadıya yürüyememiz! Yağmur inanmadı bize. Zaman geçtikçe öğrendim ki biri diğerine ait değilse soğuk yağarmış yağmur. Biz hiç ait olamadık ve sen bunu hep bildin! Esef etme sakın, artık ben de biliyorum ve net olamayışının suçunu kendimde aramıyorum… Ne vakittir hiç hatırlamadığım bu eski zaman bu hoyrat rüzgâr ve soğuk yağmurla hatırıma geldi de ondan… Şu defter! Artık biliyorum bir kıza ait. Silinmemiş, diken yırtmamış, mürekkebi akmamış kimi cümleler var ki sen diye hitap edilen kişi bir erkek! Aitmiş gibi duran ama her yere her şeye ait olan bir erkek! Su nereye akarsa oraya akan, kimin atı önde giderse ona binen! Mert değil bu adam da. Senin gibi kendi geldiğini hep unutan!

Neyse yağmur durdu. Rüzgâr esnedi. Uçuşup duran her şey bir yere bir şeye tutundu. Tuttu onları bir şey! Ben durduğum yerde çakılıp kaldım. Saçlarımdan su akıyordu. Ellerimde biraz mürekkep biraz çamur ve biraz yalnızlık vardı… Sonra bir kuş geldi. Sık dikenli kuş burnuna kondu. Arkasından bir kuş daha. Sonra bir kuş, bir kuş daha. Derken cıvıl cıvıl sesler yol boyu yayıldı. Rüzgâr durdu. Güneş açtı. Yanı başımdaki ağaçtan kurtlu birkaç alıç düştü… Pırrr diye uçuşan kuşlar turuncu alıcı gagalamaya başladı. Gariptir ki hiçbiri benden ürkmedi… Çakıldığım yere çöküp elimdeki kağıtlarda ne kaldığına baktım? "Sen diyordu; Gitmekle kalmadın! Beni de yanında götürdün. Ben buna inanıyorum…" Bir

diğerinde; “Yittim ben! Gelirsen ancak bulunurum!” Ve okunaklı son kâğıtta; “Altını çizdiklerinin altını çizdim. Buysa kader…”

Kader buydu! Bunca yıl sonra küllediğim bir acıyı kendi indimde aklamak için kapılıp gelmiştim bir rüzgâra! Tanrı, artık yol senin diyordu! Çık yola ve ardına hiç bakma! Tutmasını ve tutunmasını bilmeyenlerle aynı yola düşme! Ayağa kalktım. Kuşlara, alıç ağacına, onlarca dikene bakıp arabaya doğru uzaklaşırken bir ses duydum. İki genç el ele diken başlarındaki ıslak kağıtları topluyorlardı… Bak ya! Diyordu erkek; “Ben hiç verdiğim sözden döner miyim? Aklınca kapılıp gittin bir rüzgâra” Elini sımsıkı tutuyordu kız, hiçbir şey olmamış, o defter yırtılıp yurdun penceresinden savrulmamış ve hoyrat rüzgârda parçalanıp yağmurda ıslanmamış, hatta hatta hiç yazılmamış gibi… Öyleydi belki! Hiç yazılmamıştı defter. Hiç esmemişti rüzgâr ve hiç yağmamıştı yağmur… Kız da yoktu oğlan da… Sevgi de yoktu ayrılık da… Kuşlar mı? Onlar hiç yoktu ama dağılan her defteri aklında tutan kalpler ve alıç ağaçları vardı… Arkama dönüp ağaca baktım. Koynundaki deliklerden, kurtlu meyvelerinden anladım ki o benden de çok çekmişti. Elimi kalbime koyup selamladım ağacı. Bu selamdan sonra bu şehirde ne ayrılık olacak ne soğuk yağmur yağacak ne de rüzgâr hoyrat esecekti…

Ve;

Yoldan

Rüzgârdan

Yağmurdan

Kuşlardan

Alıç Ağacından

Mürekkepten

Kâğıttan

Kalemden bana kalan şey;

Kendi hikayesinde yanılmış olanların, herkesin de hikayesinde yanılacağını sanmasıydı…

Herkes yanılmazdı. Sadece çok, en çok inananlar daha çok yanılırdı… Bir de gerçekten sevenler…

20 EKİM 2022 PERŞEMBE/ GÜLŞEN’e. KARDEŞİM’e… Hep yanında olacağıma…

## Şahnaz Şahin

# Sən Gəldin

Sən gəldin dünyamın qarışan vaxtl
Gözləyib getmişdi arzularım da.
Nə bir işıq vardı tutub getməyə
Nə bir kölgə yoxdu daldalanmağa.

Eləcə günəş ta yandırıb yaxdı
Qəfildən Ay düşüb əlimi sıxdı.
Havalar da birdən soyudu onda
Uşaqlar elə tez böyüdü onda.

Gəlişi gözəldi, nə olsun dərddi
Nə olsun qadadı, qada alan yox.
Sağımda dəli bir inam var idi
Solimda sən vardın,görən bilən yox.

Açarı itmiş bir qapı kimiydim
Suları bulanmış çay idim Allah
Cismi didik-didik şəhid misalı
Ruhu ucalara tay idim Allah

Sonra ta sən gəldin, qarışdı aləm
O yanda Leylaya faş oldu naləm
Bu yanda Şirini qınaq etdilər
Hə bir də Allah’a bəlliydi halım.

Sonra da sonra daeh daha heç nə
Nə gördü gözlərim nə gördü saxta
Nə bir iz qalmışdı çıxıb getməyə
Nə də qayıtmağa bir yol yox idi

## Əzizə Ağahüseynqızı

# Mən Şeir Deməyə Qaçıb Gəlmişəm

Tanrım rəva bilib çağırdı qonaq,
Dünyaya gəlməyim başıma qınaq,
Bu ömür savaşdı, bu ömür sınaq,
Dərdin təpəsindən aşıb gəlmişəm,
Mən şeir deməyə qaçıb gəlmişəm..

Qazanda soğançam yarımçıq qalıb,
Süfrəm yığılmayıb, yer açıq qalıb,
Qabım yuyulmayıb bulaşıq qalıb,
Ulduztək göylərdə saçıb gəlmişəm,
Mən şeir deməyə qaçıb gəlmişəm...

Bir ucu qaranlıq, biri xeyirdi,
Başımdan ağlımı alıb çevirdi,
Bu söz möcüzədi, bu söz sehrdi,
Düşüb axarına uçub gəlmişəm,
Mən şeir deməyə qaçıb gəlmişəm...

Ömrümü yaşadan rişədi, candı,
Qanımda oynayan dəlisov qandı,
Məni özüm kimi duyan adamdı,
İnanıb könlümü açıb gəlmişəm,
Mən şeir deməyə qaçıb gəlmişəm..

Ətəyi quzqulaq, yarpız, nanəli,
Sinəsi qəmindən dərdli, naləli,
Gecəsi, gündüzü qəm şəlaləli,
Bulaq tək qaynayıb, daşıb gəlmişəm,
Mən şeir deməyə qaçıb gəlmişəm...

Tanrım özü seçdi, qismət, baxt verdi,
Sözümü deməyə özəl taxt verdi,
Şeirimi yazmağa azca vaxt verdi,
Tələsdim yollarda şaşıb gəlmişəm,
Mən şeir deməyə qaçıb gəlmişəm....

## Esmira Günəş

# Məlhəm

Gözlərinə düşən zərif günəş şüaları Nazlını yuxudan oyatdı. Gözlərini açıb bir neçə saniyə olduğu kimi qaldı. Sonra ətrafa boylandı. Yanında şirin-şirin yatan uşaqlarına tamaşa etdi. Yəqin birazdan onlar da oyanacaqdı. Birdən yerindən dik atıldı. Bəs uşaqlar oyananda onlara yeməyə nə verəcəkdi?

Axşam bayat çörəyi bir təhər isladıb yedirmişdi. Cəld yerindən qalxıb əynini geyindi. Fikirli-fikirli daxmadan bayıra çıxdı.

Nazlının yoldaşı müharibədən qayıtmamışdı. Körpələri ilə tək qalanda hələ çox cavan idi. Nazlı yetim böyümüşdü. On səkkiz yaşa çatanda qonşuları Sənəm xala onu bircə oğlu Kazımla evləndirib, evinə gəlin gətirmişdi. O gündən Sənəm xalagilin evi Nazlının da evi olmuş, illərdir görmədiyi ailə sevgisinin nə olduğunu görmüşdü. Sənəm xala çox mehriban, gülər üzlü, hər kəsi özündən çox düşünən, bütün qonşuların köməyinə çatan biri olduğundan kənddə hər kəs Sənəm xalanı çox istəyir, ona hörmət edirdilər. Sənəm xala bu kəndin həm də loğmanı idi. Kimin ağrısı olsa həkimə deyil, Sənəm xalanın yanına qaçardı. O da dağlardan yığdığı çiçəklərdən məlhəm hazırlayar, həmin məlhəmlərlə də xəstələrə şəfa paylayardı. Sənəm xalanın gözünün ağı-qarası bircə oğlu var idi. Yoldaşı da vaxtsız dünyasını dəyişmişdi. Kazımı tək böyütsə də nə təhsilini kəsir etməmişdi, nə də mədəniyyətini. Kazım hündür boylu, yaraşıqlı, sarışın, alagözlü bir oğlan idi. Kənddə bütün qızlar Kazıma həsədlə baxırdılar. Lakin Nazlının heç ağlına da gəlməzdi ki, bir gün bu yaraşıqlı oğlan onun həyat yoldaşı olar.

Sənəm xala isə Nazlıya elə bir toy etmişdi ki, kənddə dillərə dastan olmuşdu. Qızlar belə yaraşıqlı oğlanın yetim bir qızı seçməsinə paxıllıq etsələr də, toyda iştirak etməkdən çəkinmirdilər. Hər şey o qədər gözəl idi ki, Nazlı özünü hansısa nağılın içində hesab edirdi. Bu şirin nağıl beləcə bir neçə il davam etdi. Nazlının biri qız, biri oğlan iki körpəsi oldu. Bu illər ərzində Kazım kənd təsərrüfatı ilə məşğul olur, sahədə işləyir, Sənəm xala təbabətlə məşğul olur, yeni məlhəmlər üçün tez-tez dağlara qalxıb çiçək toplayır, Nazlı isə ev işlərini yerinə yetirirdi.

Həyat öz axarıyla davam etməyə çalışsa da bəzən fələk buna imkan vermir. Kəndin üstünü qara buludlar almışdı. Sən demə mənfur qonşular torpaqlarımıza göz dikdiyindən, onları ələ keçirmək üçün fürsət axtarırlarmış. Kəndə soraq çatdı ki, müharibə başlayıb. Düşmənlər bir-bir kəndləri işğal edir. Kənd camaatı qorxuya düşdü. Dedilər ki,” itkilərimiz çoxdur. Ordumuz düşmənlərin qarşısını ala bilmir.” Kazım bu sözləri eşidəndə özündən çıxdı.

-Necə yəni düşmənlərin qarşısını ala bilmir? Heç belə də iş olar? Səbəbsiz yerə basqın edib kiminsə evini talan edib, yurduna sahib çıxasan? Kazım divardan asılmış atasından qalan ov tüfəngini əlinə alıb evdən ildırım sürətiylə çıxdı. Nazlı baş verənlərdən Kazımın döyüşə getdiyini anlasa da hadisələr elə sürətli olmuşdu ki, yazıq qız yerində donub qalmışdı elə bil.

Kazım gedəndən bir neçə saat keçmişdi. Günəş göy üzünə boz örpəyini çəkirdi. Hava yavaş-yavaş qaralmağa başlamışdı. Sənəm xala əlində çiçəkləri yığdığı torpalarla qapıdan girdi. Hər zaman o gələndə Nazlı qabağına qaçar əlindəkiləri alıb evə gətirərdi. Bu dəfə isə Nazlının gözləri yola dikilmiş hətta Sənəm xalanın gəldiyini belə hiss etməmişdi.

Sənəm xala evdə nəsə baş verdiyini hiss edib, Nazlıdan Kazımı soruşdu. Elə bil ki, qız elə himə bələddi.”Kazım müharibəyə getdi”-deyib necə hönkürdüsə. Yazıq Sənəm xalanın ürəyi tab gətirə bilmədi. Elə oradaca ürəktutmasından dünyasını dəyişdi. Lənətə gəlmiş müharibənin adı belə insanların həyatını viran edir. Nazlı yerə yıxılan Sənəm xalanı görüb fəryad qopardı. Evə qonşular toplaşıb kömək etməyə çalışsalar da heç bir faydası olmadı. Səhəri Sənəm xalanı dəfn etdilər. Nazlı iki körpəsiylə evdə tək qaldı. Bu biçarə gəlinin hələ görəcək günləri qarşıda imiş.

Günlər keçmişdi. Sənəm xaladan sonra qonşular bir müddət Nazlını tək qoymasalar da artıq hər kəs öz evinə çəkilmişdi. Onlara gedib gələn demək olar yox idi. Kazımdan da bir xəbər gəlmirdi. Nazlı ailə qurduğu bir gündən heç vaxt əziyyət görməmişdi. İndi isə tək qalmışdı uşaqlarını böyüdə bilmək üçün nə isə etməli idi. Evdəki ərzaq da yavaş-yavaş tükənirdi. Ancaq Nazlı

çox qoçaq gəlin idi. Qaynanası məlhəm hazırlayanda yanında dayanar, ona diqqətlə baxıb nəyi necə etdiyini öyrənərdi. Uşaqlarla sahədə işləyə bilməyəcəyindən qərara gəldi ki, dağlardan çiçək toplayıb məlhəm hazırlasın. Sonra həmin məlhəmləri ərzaqla dəyişib uşaqları böyüdər. Uşaqlar balaca olduğundan birini kürəyinə bağlayıb digərinin də əlindən tutan Nazlı çiçək toplamaq üçün dağa qalxdı. Axşam evə qayıdanda gördüyü mənzərədən şoka düşmüşdü. Sənəm xalagilin evi qayanın dibində idi. Hətta divarlardan biri də qayaya bitişik idi. Torpaq sürüşməsi nəticəsində hündür qayalardan biri qoparaq düz Nazlıgilin evinin üstünə düşmüşdü. Ev yerlə-yeksan olmuşdu. Nazlı bilmirdi qara bəxtinə haray qoparıb ağlasın yoxsa uşaqları qorxmasın deyə dərdini içinə atsın. Gecənin qaranlığında iki körpəsiylə birlikdə evsiz qalmışdı. Gözünün yaşları səssiz-səssiz süzülüb yanağını isladırdı. Birdən ağlına gəldi ki, kəndin o başında köhnə bir daxmaları var. Gəlin gəlməzdən öncə anasından qalma həmin daxmada yaşayırdı. Cəld uşaqlarını götürüb daxmaya tərəf yola düşdü. Taxtadan uçuq-tökük olan bu daxmada heç çarpayı belə yox idi. Yerdə bir iki döşək bir iki də qab qaşığı vardı sadəcə. Bir təhər daxmaya əl gəzdirib köhnə çırağı tapıb yandırdıqdan sonra torbasında gündüzdən qalıb quruyan bayat çörəyi çıxardı. Bir təhər su ilə isladıb uşaqlara yedizdirdi. Onları yerdəki döşəyə uzadıb özü də yanlarına uzandı.

Səhər oyananda da ağlından keçən ilk cümlə uşaqların nə yeyəcəyi idi. Daxmanın qarşısına keçib ətrafa boylandı. Birdən qulağına səs gəldi. Biraz qabağa gedib nə baş verdiyini öyrənmək istəyirdi. Bir qrup turist kəndi gəzməyə gəlmişdi. Lakin meşədə gecələyərkən səhərə yaxın onlardan birinin çadırına ilan girərək qızlardan birini sancmışdı. Qışqırıqları meşədə əks səda yaradan turistləri görəndə Nazlı anladı ki, nəsə olub. Cəld onların yanına gəlib nə baş verdiyini soruşdu. Qızın qolundakı izi görüb tez qızın qolunu ağzına alıb ilanın zəhərini sovurub yerə tüpürdü. Onları daxmaya gətirib dünən yığdığı çiçəklərdən bir neçəsini daşla əzib suyunu yaranın üstünə çəkdi. Hər kəs qorxu içində Nazlının etdiklərini seyr edirdi. İlan dişləmiş qızın rəngi elə ağarmışdı ki,  onun yaşayacağına heç kəs inanmırdı. Nazlı onlara qızın tərpənmədən bir neçə gün yatmalı olduğunu deyərək, bir tərəfdən də məlhəmlər hazırlayır, tez-tez qızın yarasına qoyduğu məlhəmləri deyişirdi. Bir gün beləcə keçdi. Gələn turistlər bilmirdilər ki, qızın vəziyyətini ailəsinə necə xəbər versinlər. Şəhər icra başçısına yeganə qızının ölümlə üz-üzə olduğunu deməyə heç kəsin ürəyi gəlmirdi. Bir gün sonra ilan vuran qız gözlərini açdı. Hər kəs şokda idi. Onun qolundakı yaranın izi belə qalmamışdı. Qız isə tamamilə sağlam idi. O xilaskarına təşəkkür edərkən, Nazlının həyat hekayəsini öyrənir. Ona onlarla birlikdə şəhərə getməyi təklif edir. Kənddə bir kimsəsi qalmayan Nazlı, bir tərəfdən də evsiz qalmışdı. Bu təklif ona övladlarını sağlam böyüdə bilmək üçün bir fürsət ola bilərdi. Onlar birlikdə şəhərə gedirlər.

İcra başçısı olanları eşitdikdən sonra Nazlını yanına çağırıb ona təşəkkür etdi. Yeganə qızının həyatını xilas etdiyi üçün onu da özünə bir övlad bildiyini bildirərək, şəhərdə yaşaya bilmələri üçün Nazlıya ev və bir də məlhəmlərini sata bilməsi üçün dükan verdi. Nazlı taleyin ona yaşatdığı sıxıntılardan sonra həyatın üzünə yenidən gülməsinə sevinərək, övladlarını şəhərdə böyütdü. Qızı müəllim, oğlu isə həkim oldu. İllər sonra oğlunu və qızını yanına alıb doğulduğu kəndə qonaq gələn Nazlının ilk getdiyi yer Sənəm xalanın məzarı oldu. Kazımdan heç bir xəbər olmasa da illər boyu yolunu gözləməkdən yorulmadı. Bir gün Kazımın dönəcəyi ümidini qəlbindən silməyərək yaşadı Nazlı.

## Maşide Aydoğan Dinçer

# Bizim Evin Halleri

Gözlerimi açtığımda sabah ezanı okunuyordu. Yataktan kalktım, abdest alıp sabah namazını eda ettim. Pencereden baktığımda hava henüz karanlıktı, şu sokak lambalarını da erkenden kapatmasalar ne güzel olacak. Çocuklar karanlıkta okula gitmek zorunda kalıyorlar,göz gözü görmüyor. Servis araçları çalışmaya başlamıştı bile, tek tük insanlar işine gitmek için dışarıdaydılar. Sabah ezanıyla birlikte başlıyordu hayat telaşımız. Benim de çocukları okul için uyandırmam gerekiyordu, beslenmelerini hazırlamak için mutfağa geçtim. Patates kızartmasının kokusu evi sarmasın diye mutfak kapısını açtığımda yağmurun sesini duydum. Hemen balkona koştum, gerçekten yağmur yağıyordu. Geçen yıl yağmur hiç yağmamıştı. Yağmuru ve sesini oldukça özlemiştim. Yağmurun sevinciyle patatesleri kızartmaya başladım. Henüz uyandırma saati için erken olduğundan ses çıkarmamaya özen gösteriyordum. Ben ne kadar özen göstersem de mutfak eşyaları bu konuda oldukça duyarsız davranıyorlar, tangır tungur tencere tava hep aynı havadalar.

Tarık Tufan'ın en sevdiğim sözlerinden biri geliyor aklıma;

"Annem benim için mutfaktan gelen tabak çanak sesleridir; mutfaktaki su sesi, pencereyi açma sesi, namaz kılarken duyulan fısıltı sesidir.Annem biraz da ev sesleridir"

Bizim evin sakinleri için aynı şeyi söyleyebilir miyiz? bilemiyorum. Çoğu zaman sakarlıklarım ve dikkat dağınıklığım başımıza dert açabiliyor, mutfakta fazla gürültüye sebebiyet verebiliyorum. Bazen eşim şakayla karışık; "Bir gün ben de bir yazı yazacağım 'ev eşyalarının dramı' diye" der…

Bir yandan odalara koşuyor, çocuklara sesleniyordum, bir yandan da mutfağa koşuyordum. Patatesleri yakmamam lazım.

Bu sabah telaşında günün ilk sakarlıklarından birini yaşadım. Kızımın beslenme kabını mikro dalga dolabının içinden alayım derken, dolabın kapağını açmıştım ki uçta duran şeker kâsesi yere düşüverdi.

Ah! emektarım, elim ayağım elektrikli süpürgem de her gün çalışmaya daha fazla dayanamayarak motorunu yakmıştı. Nasıl temizlenecek şimdi? Her taraf şeker oldu. "Kim koydu bu kaseyi buraya?"

Bu arada çocuklar ve eşim uyanmışlardı gürültüye, hepsi birden mutfağa koşarak geldiler. Ağlamaklı bir ses tonuyla;

"Bir şey yok her zamanki sakarlığım işte" dedim. Seslenmeden odalarına geçip hazırlanmaya başladılar. Ev halkını göndererek bu sabah da hengameyi bitirmiştim nihayet. Bazen hayatın kocaman bir ağız olduğunu ve beni içine alarak yuttuğunu düşünüyorum. Değirmen taşı gibi durmadan dönüp duran dünya, beni de bir un gibi eleyerek parçalara ayırıyor sanki.

Evdeki hangi odaya gitsem eşyalar isyan içindelermiş gibi hissediyorum. Yinede iyi ya da kötü anlaşıyoruz hepsiyle. Çamaşır ve bulaşık makinem evimin hamarat kızları, elektrikli süpürgem titiz kızım, bir tek ütüyle anlaşamıyorduk onunla da sonunda uzlaşma yolunu bulduk. Kıyafetlerin üzerinde kaykay yaparken müzik dinliyoruz keyifle…

Günün bütün hengamelerinden kurtularak,herhangi bir sakarlık yapmadan,eşimle birlikte akşam çayı içmek istiyorum. Yanına bir de Maraş hapısası yapayım. Üzerine bir de ceviz ekledik mi tadından yenmez.

Hapsa bıraktığım kaseleri odaya götürmek için elime alacakken kâsenin biri elimden kaydı. Kâseyi yere düşürmemek için yaptığım hamleyle birazı tezgahın üzerine döküldü. İstem dışı olarak çığlık attığım da, eşim koşarak mutfağa geldi. tabii bir şey oldu diye korkmuştu adamcağız! Yine sakarlıklarımdan biriyle karşılaştı. Yere eğilerek benimle birlikte dökülen cevizleri toplarken, gülerek söylenmeye başladı. "Senin suçun değil,elinden kayıp döküldü. Tezgâhın üzerinde duran bardak da öyle, dolabın içinde duran şeker de. Ah! Nasıl da koluna değerek dökülüyorlar."

Ardından gülme krizleri ve sevgiyle bakan gözler…

## Kazımova Kövsər

# Hüseyn Cavidin “İblis”, Höte’nin “Faust” Əsərlərində İblis Obrazının Təhlili

Hüseyn Abdulla oğlu Rasizadə 1882-ci il oktyabrın 24-də Naxçıvan şəhərində dünyaya göz açıb. Musiqini, muğamatı yaxşı bilən, məlahətli səsi ilə tanınan atasının qəzələ vurğunluğu gələcəyin söz ustadı Hüseynə də keçib. O, əvvəlcə mollaxana, sonra Naxçıvan rus-tatar məktəbində (Məhəmməd Tağı Sidqinin “Məktəbi-tərbiyə”sində), Təbrizin “Talibiyyə” mədrəsəsində, İstanbul Universitetində təhsil alıb. İstanbuldan yazdığı məktubunda “Əsir olduğum bir şey varsa, o da həqiqət və məhəbbətdir” fikri Hüseyn Cavidin düşüncələrindən xəbər verir. Bu həqiqət və məhəbbətin mənasını isə onun vətənini, millətini azad və xoşbəxt görmək arzusu təşkil edirdi.

Milli poeziyamızda fəlsəfi lirikanın təkrarsız nümunələrini yaratmış Hüseyn Cavid mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələ yaradıb. Onun yaradıcılığı Şərqin estetik fikir tarixi və dünya romantizm ənənələri ilə sıx bağlıdır. Dahi sənətkarın zəngin irsinə “Keçmiş günlər”, “Bahar şəbnəmləri” şeirlər silsiləsi, “Azər”, “Kor neyzən” poemaları, “Ana”, “Maral”, “Şeyx Sənan”, “İblis”, “Şeyda”, “Uçurum”, “Afət”, “Peyğəmbər, “Topal Teymur”, “Knyaz”, “Səyavuş”, “Xəyyam”, “İblisin intiqamı” dramları, ədəbi, elmi, ictimai baxışlarını əks etdirən məqalələri, məktubları daxildir. “Atilla” (Gözəl Eyida), “Çingiz”, “İblisin ilhamı”, “Telli saz”, “Şəhla”, “Koroğlu” adlı əsərləri isə müsadirə olunub.

Azərbaycan mədəniyyətinin gündən-günə inkişaf etdiyinin, dünyada tanındığının və qəbul olunduğunun şahidi kimi qürurla deyə bilərik ki, Hüseyn Cavidin vaxtilə məfkurə davasını insanların beyninə, milli zehniyyətinə aşılamaq məqsədilə qələmə aldığı

Turana qılıncdan daha kəskin, ulu qüvvət,

Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət! –

Arzuları da bu gün gerçəkləşib [Hüseyn Cavid]

Azərbaycan bədii ədəbiyyatında və fəlsəfi fikir tarixində özünə əbədiyyəti təmin etmiş ulu söz sənətkarımız Hüseyn Cavidin yaradıcılığı elə ədəbi qaynaqlarımızdandır ki, buraya hər dəfə müraciət edəndə sənətkar dühasının yeni-yeni möcüzələri qarşısında heyrətlənməli olur, özümüzü bu qüdrətli sənətkarın romantik ecazkar aləmində hiss edirik. Mənzum dramaturgiyamızın dünya ədəbiyyatının şedevrləri sırasında vüqarla dayanmağa layiq əsərlərindən olan “İblis” faciəsi ədibin yuxarıdakı fikirlərimizi təsdiq edən əsərlərindən biridir.

Qədimdən insanlar həyatda bir-birinin əksi olan qüvvənin mövcud olduğuna inanmışlar. Bunu onlar zülmətdə işıq şərlə xeyir və s. Şəkillərdə təsəvvür etmişlər. Şifahi ədəbiyyatda olduğu kim, yazılı ədəbiyyatda da div surətlərinin təsvirinə müəyyən yer verilmişdir. Nizami Gəncəvi xalqın arasında qüvvət şər timsalı sayılan divlərin insan məhəbbəti qarşısında aciz olduqlarını qeyd etmişdir.

Nəfsin, tamahın nəticəsində öz nüfuzunu, var dövlətini itirən şəxslərin çıxılmaz vəziyyətə düşmələrinin səbəbini şair şər qüvvələri təmsil edən divlərə bağlayır.

Şeytan sözü məhdud məna kəsb etmir. Bütün şər işlər, o cümlədən, insanların mənəvi aləminə, onların məişətinə ziyan verən hadisələr bir məfhum ilə bağlıdır. Demək, “şeytan” sözü insanların həyatına məişətinə, ziyan vuran məfhumları çox özündə birləşdirir.

XX əsr yazıçıları İblis məfhumuna ictimai don geyindirmiş, ondan real həyatın mənfi cəhətlərinin tənqid və ifşa etmək üçün istifadə etmişlər. Onların İblisə bu şəkildə yanaşmaları, eyni zamanda məntiqi olaraq, hər cür mövhumi təsəvvürlərdə xurafata və nəticə etibarilə dinə qarşı çevirmişdi.

Lakin XX yazıçıları əsərlərində ara-sıra rast gəldiyimiz şərti İblis surətlərinin heç biri sənətkarlıq və bədii təsir qüvvəsi etibarilə H. Cavidin “İblis” faciəsindəki sürətlə müqayisəedilə bilməz. Hüseyn Cavidin “İblis” faciəsi dünya ədəbiyyatının bir sıra böyük abidələri ilə də səsləşir. Bayronun” Qabil” ,Hötenin” Faust” , Lermantovun “Demon” əsərlərindəki İblis surətləri mövcud ictimai quruluşun ziddiyyətlərinin geniş və qabarıq şəkildə əks etdirmək üçün bir vasitə olmuşdur .

Hötenin “Faust” əsarinə nəzər yetirsək əgər Mefistofel bu İblislərin hamısından üstündür və əsər fəlsəfi məzmun daşıyır. Faust bəşər övladlarının simvoludur. O, öz idealı uğrunda həmişə mübarizə aparır. Ancaq məqsədinə çatmağa ümidi yoxdur.

Hötenin yaratdığı İblis (Mefistofel) tipi bir çox sənətkarları öz qələmlərinisınamağa sövq etmişdir. Çox səy etmələrinə baxmayaraq, onlar Hötenin yaratdığı İblis(Mefistofel) səviyyəsinə çata bilməməişlər.

Huseyn Cavidin ən qiymətli əsərlərindən olan "İblis" əsərində şair, dramaturq, müharibə nəticəsində insanları mənəvi cəhətdən şikəst edən amilləri gostərmişdir.

"İblis" romantik faciə olsa da, müharibənin doğurduğu vəziyyətin və əhvali-ruhiyyənin umumiləşmiş bədii ifadəsidir. "İblis" faciəsində səadəti silah və zorakılığın bədənində görən bir cəmiyyəti ictimai faciəsini əks etdirdiyini görürük. Əsəri 20-ci illərdə tamaşaya qoyulması mədəniyyət və teatr aləmində böyük ədəbi-ictimai hadisəyə çevrilmişdi.

"İblis" faciəsi H. Cavidin şah əsəridir. Dramaturqu faciədə ayrı-ayrı şəxsiyyətlərin taleyi maraqlandırmır. Ümumiyyətlə insanların, bəşərin taleyini düşündürmüşdür. Dramaturq belə qənaətə gəlir ki, insan mənəviyyatının formalaşmasında xarici mühit başlıca rol oynayır. O, insanlara üz vermiş faciədən çıxış yolunu onların mənən təmizlənməsində, mədəniyyətə yiyələnməsində, kamilləşməsində görür.

"İblis" əsəri İblislə Mələk arasında müharibədən ibarət ekspozisiya ilə başlayır. Mələk insanlar haqqında müsbət fikirdədir. O, cinsi-bəşəri xeyirxah və nəcib bir varlıq kimi tanıyır və insanların fəlakətin səbəbini İblisə uymaqlarinda görür. Mələk inana bilmir ki, axan qanların səbəbkarı mənən eybəcərləşmiş insanın özüdür.

Yox kimsədə insafı mürüvvət,

İblisəmi uymuş bəşəriyyət!?

İblis isə nahaq axan qanların əsl səbəbinin məhz insanlarda görür.

Sellər kimi axmaqda qızıl qan,

Canlar yaxar, evlər yıxar insan... [Hüseyn Cavid]

Hüseyn Cavid insanı həm ən yüksək məxluq kimi, həm də cəmiyyətdə baş verən hər cür ictimai-siyasi ədalətsizliyi tərəfdən bir cani kimi görmüş və bunun taomağa çalışmışdır.

Əsərdəki Mələk obrazı insanları mələk kimi saf və təmiz görmək istəyən bir rəmzdir. Dramaturq faciədə yüksək təbiətli insanın iblisə qədər alçalma prosesini gostərmiş və bunun ictimai səbəblərini əyani olaraq izah etməyə çalışmışdır. Onun məqsədi, ümumiyyətlə, insanların həyat tərzinə, əxlaq qaydalarına təsir edən ictimai amilləri açmaq idi.

Müəllif nəcib insanla, pul və şöhrət hərisi olan insanı müqayisə edərkən belə qənaətə gəlir ki, məsələn bəşəriyyətin " iblisə uymağına" şübhə ilə yanaşır və insanın vəhşiləşməsinin səbəbinin özü üçun aydınlaşdira bilmir.

Mələk fəlakətin səbəblərini "İblisəmi uymuş bəşəriyyət"-deyə, insanların iblisə uymasında İblis isə " Canlar yaxar insan!" -deyə insanların öz təbiətində görür. Bundan sonra əsərdə bu axtarışları qarşılaşdrıran yeri real,  yarı romantik hadisələr, tiplər gəlir.

" İblis" faciəsində həm də dərin bir istehza vardır. Bu istehzanın hədəfi isə mistik, dini görüşlərdir ki, Arifin " faciəsində" təzahür edir. İblis kinayəli gülüşü ifşaedicidir. Bu onu göstərir ki, İblisin istehza və nifrət obyekti geniş olduğu kimi çox mürəkkəbdir. " İblis faciəsində insana, məzlum bəşərə böyük bir məhəbbydə vardır. H. Cavid insana olan məhəbbətini, husn- rəğbətini bəşəriyyəti oyuncağa döndərən ictimai quruluşun, hakim təbəqənin simasizliğini ifşa etməklə bildirir. Lakin bu əsərdə H. Cavid daha çox daha çox düşünən və düşündükcə kədərlənən sənətkardır.

Ümumiyyətlə, faciənin ruhunda bir kədər, bir iztirab, dərd əlindən bezmiş bir yorğunliq, bir nalə vardır.

Bu kədəri doğuran insanın öz haqqını tələb edərkən qüvvətli rəqibi ilə üz-üzə gəlməsi və həmin qüvvə tərəfindən korlanmasidir.

Məhz bu ziddiyyətləri gostərmək üçün Hüseyn Cavid Arif sürətinin müqabilində rəmzi İblis sürətini yaradır. Mövcud qurulşda hakim olan riyakarloği, ikiüzlüluyu yalnız İblis aça bilərdi. İblis yazıçı tərəfindən bu məqsəd üçün düşünülmüş ən münasib obrazdır. İlk səhnədə müharibə dəhşətmərindən vəcdə gələn və dəhşətlərini səbəbinin bütün masajlarda girən İblis son səhnələrdə artıq insanları deyil, şahları, dərəbəyləri, din xadimlərini ittiham edir. O hətta di bu i sistemlərə kohnəlmiş mənasız etiqadlar qarşı cixir, kinayəli, çılğın qəhqəhələrlə onlara gülür.

"İblis" faciəsindəki İblis bitkin mürəkkəb xarakterə malikdir. Arif və o hn həmfikirlərinə görə İblis baş verən bütün cinayətləri , eybəcərliklərin səbəbkarıdır. Əslində isə Hüseyn Cavidin İblisi ictimai mühitin mövcud quruluşu qəbahətlərinin tənqid və ifşa olunmasına xidmət edən surətdir.

Hüseyn Cavidin "İblis"i heç də Hötenin "Faust"un-

dan geri qalmır. Ancaq biz belə inciləri lazimi qədər qiymətləndirə bilmirik (Heydər Əliyev)

Bəli, doğurdanda biz "Faust" əsəri və "İblis" əsərini müqayisə edəndə görürük ki,bu iki əsərdə mənim fikrimcə çox fərqlənir. Hüseyn Cavidin "İblis " əsəri başdan-başa bir məna yüklü əsərdir. İnsan hər şeyini oxuduqca altında yatan mənanı axtarır. Sənətkar cümlələri elə dahiyanə qələmə alıb ki, insan heyran qalmamağı mümkün deyil. İnsanı dərin fikirləşə sürükləyir, xüsusilə də İblisin moniloqları məni daha çox düşündürür.

Bu iki əsər haqqında bir çox araşdirma etdim , bir çox ədibləriniz də onların fərqləri haqqında yazmişlar. İblis haqqında geniş araşdirmalr vardır. Ədəbiyyatşünas, filologiya elmlər doktoru Lütviyyə Əsgərzadənin də məqaləsi və yazıları ilə də tanış oldum.

Öncəliklə bu iki əsərin bəzi oxşar və fərqli cəhətlərinə diqqət yetirək

Mefistofel Faustu kabinədən çıxarıb bilavasitə maddi fəaliyyətə qaçmaq üçün göndərilibmiş. Baxmayaraq ki, Mefistofelin öz şəxsi niyyəti də var, amma son nəticədə Allahın iradəsi həyata keçir.

H.Cavidin "İblis"ində isə insanı fəaliyyətə cəlb eləyən səma qüvvələri deyil. Bu məsələdə əsas rol oynayan İblis də səma qüvvəsi olmayıb, hakim ictimai mühiti təmsil edir. Nə zaman ki, Arif daha mövcud ictimai mühitin passiv müşahidəçisi kimi qala bilmir, mühitin eybəcərlikləri onun istəyindən asılı olmayaraq şəxsi həyatına daxil olur, onda Arif istər-istəməz fəallaşır, hadisələrin real iştirakçısına çevrilir və bir müddət İblisin təsiri altına düşsə də, nəticədə əlindəki silahı hakim mühitin özünə qarşı çevirəcəyinə şübhə yeri qalmır [ Əsgərzadə Lütviyyə]

İblisin rəmzi mənası dərk edildikdə, onun Allaha qarşı çıxışının da rəmzi mənası aydın olur. Bu rəmzilik xüsusən "Faust"un proloq hissəsində (asimanda) Allah və Mefistofelin söhbətində, və əsərin finalında aşkar şəkildə görünür. Allah və Mefistofel insanda "xeyir və şər başlanğıclarının" rəmzləri kimi təqdim edilir. Və təbiidir ki, proloqdakı söhbətdə

Allah insandakı yaxşı cəhətləri, Mefistofel isə pis cəhətləri görür və hər biri bu cəhətlərin mütləqləşəcəyinə inanır və cəhd edir.

Bəli, başdan-başa, tanrım, qan, qada...

İnsanlar qəm, möhnət içindədir lap.

Deyən mefistofel onları tam miskin gələcəyinə şübhə etmir:

O da, mənim əziz, istəkli xalam ilan tək torpaqda sürünəcəkdir. Bəli, acgözlüklə o, ümidvaram, yerlərdə toz-torpaq sümürəcəkdir.

Allah isə, əksinə, insan haqqında yüksək fikirdədir: O,-

Şübhələr, zülmətlər dolu həyatda,

Cəhd edir haqq yola çıxsın inadla. –

deyir və insanın nurlu gələcəyinə inanır:

Axtarır, zülmətdə hələ yol gedir,

Nuru hümmətim

Hötenin "Faust"unda Allah və Mefistofel rəmzlərinin arxasında hansı real qüvvələrin dayandığı aydın olmur. Ümumiyyətlə, müəllifin belə bir məqsədi yoxdur. Əsər ardıcıl romantizm mövqeyindən yazıldığından müəllifin məqsədi ümumiyyətlə Xeyir və Şərin mübarizəsini tərənnüm etməkdən, insan təbiətində xeyrinmi, yoxsa şərinmi üstünlük təşkil etdiyini göstərməkdən ibarətdir. Burada Xeyir və Şər insanı mənəvi aləminin iki əzəli və əbədi qütbü kimi göstərilir; onların gerçək həyati mənbələri isə axtarılmır və ya tapılmır.

"İblis" əsərində isə məqsəd məhz bu mənbəyi müəyyənləşdirmək və onu nişan verməkdən ibarətdir. Burada H. Cavidin qarşısında çox çətin bir məsələ durur: bir tərəfdən ənənəvi rəmziliyin şərtlərinə sadiq qalmaq, yeri gəldikcə Allah ilə İblis arasındakı əksliyə müraciət etmək, digər tərəfdən də Allahı ancaq xeyir rəmzi kimi verməkdən imtina etmək, onu həm də gücün, zorun rəmzi kimi təqdim etməkdir.

Nəticə: Hüseyn Cavid İblisi isə həqiqəti anlayıb onu lənətləyən insana:

" - İblis nədir?

- Cümlə xəyanətlərə bais ...

- Ya hər kəsə xain olan insan nədir?

- İblis!.."

- söyləyərək qəhqəhələrlə yer altına çəkilir.

Nəticə olaraq qeyd edə bilərik ki, müxtəlif dünya sənətkarlarından və onların yaradıcılığından heç də geri qalmayan H.Cavidin yaradıcılığı, sənətkarlığı təqdirəlayiqdir. Cavid həm dünyanın, həm də Vətəninin ən ağır günlərində sözün gücü ilə şərlə mübarizə aparıb və bu mübarizədən qalib çıxıb. Onun əsərləri dünya miqyasında tanınmağa layiqdir.

Elmira Mahalqızı

# Söz

Dirilik suyunu ürəkdən içən,
Eşq ilə doğulan məhəbbətdi söz!
Əsrin süzgəçindən süzülüb keçən,
Qəlbə ümid verən hərarətdi söz!

Loğmandı ,təbibdi,ürək açandi,
Nuruyla aləmə işıq saçandı,
Qöncə dodağında ğullər açandı,
Şairin şerində təravətli söz...

Ruhu gələcəyə apara bilər,
Keçmişi həyata qaytara bilər,
Dünyanı bəladan qurtara bilər,
Şair vüqarında dəyanətdi söz!

Sönməz bir çıraqdı, zülmətə doğru,
Uçalan bayraqdı millətə doğru,
Ulu bir soraqdı, hümmətə doğru,
Ölməz qəhrəmandı ,cəsarətdi söz!

Mahalqızı şerin ox edə bilər,
Yaşadar,ömrünü çox edə bilər,
İstəsə bir anda yox edə bilər,
Həyat meydanında fərasətdi söz!

Qurulmuş divandı ,sulanmiş meydan,
Ona varlıq verib Ulu Yaradan,
Sənət dünyasında xariqə quran,
Bəşərə örnəkdi, bəsirətdi söz!

## Sərvanə Dağtumas

### Aqşin Xəyalın "Mənim Erməni Oğlum" Əsərində Ananın Mənəvi İztirabları

Hər insana öz acısı doğmadır. Kiminsə hekayəsini bilmədən, onu qınaya bilmərik. Bu əsərdə azərbaycanlı qadının və onun "erməni" övladının acı taleyi qara boyalarla təsvir olunub. Xocalıda düşmənə əsir düşən Elnurə bir neçə erməni tərəfindən təcavüzə uğrayır. Əsirlikdən qayıdarkən, hamilə olduğunu öyrənir. Bu xəbəri həmyerliləri xoş qarşılamır, hamı onu günahlandırır, "ermənini artığı" kimi görür. Cismi bir müddət düşmənlər tərəfindən əsir alınmış Elnurənin ruhunu, mənəvi aləmini bu dəfə öz həmyerliləri əsir alır. Təkidlə Elnurənin anası ilə atasının yaxşılıqlar etdiyi dayısı bu fədakarlıqların qarşılığında Elnurənin övladını tələf etməsini təkid edir. Ana dilemma qarşısında qalır. Bu dilemmada övladını seçir. Onun atası erməni olsa da, o bu acı taleyinə acı göz yaşları töksə də, analıq instinkti tərəzidə ağır basır. O , bütün qınaqlara, tələblərə rəğmən, övladının işıqlı dünyada göz açmasını istəyir, ona ruhunu verir, onun atası erməni olsa da, o, övladını türk ruhunda böyütmək istəyir, südü ilə, laylaları ilə övladının ruhunu tərbiyələndirir ,övladının oğlan olması da təsadüfi deyil.

Həmyerliləri, xüsusilə də doğma dayısı ana ilə balaya gün vermir, ananı buranı tərk etməsə, həbsi ilə hədələyir. Xəyalları, arzuları həbs olunmuş ananın cisminin həbs olunmasının bir önəmi vardımı? Ancaq Elnurə öz həyatından yox, övladının həyatından qorxurdu. Elnurənin dayısı, dayısı uşaqları Elnurədən utanırdılar, çünki namusları "ləkələnmişdi", ona qol-qanad gəlmək yerinə, ona nifrət edirdilər.

Elnurə övladının taleyindən qorxub onu bu dünyanın "canavarlarına" yem etməkdənsə, intiharı seçdi, daha doğrusu qurtuluşu, xilası. Düşmənlərimiz tək Elnurənin yox, neçə-neçə qızlarımızın arzularını gözlərində qoydular. Lakin qalib gəldilərmi? Elnurə ölümü ilə qalib gəldi. Ölməzdən qabaq övladının "atasını" tapıb ondan qisas aldı, onu ləyaqətli şəkildə öldürdü.  Elnurənin övladı sevgidən yox, məcburiyyətdən, təcavüzdən dünyaya gəlmişdi, o körpənin bir günahı yox idi. O, Elnurənin yaralarına yara bandı olmuşdu.

Aqşin Xəyal real hadisələrin fonunda belə bir əsər yaradıb, təcavüz olunmuş bir qadının taleyindən yola çıxaraq, qələmini işə salıb. Hal-hazırda ana ilə balanın məzarı Mingəçevirdədir. Onların məzarını bir anasının yaxşılıqlar etdiyi dayısı arvadı, bir də ona məhəbbət bəsləyən gənc bir oğlan ziyarət edir.

Oxucular, siz olsaz, o övladı dünyaya gətirərdinizmi?

## Tamara Sadıq

### Boş Qalıb

Siz yoxsunz kədər izi üzümdə,
Heç nə yaxşı görünməyir gözümdə .
Bir şirinlik daha yoxdur sözümdə,
Həsətiniz ürəklərdə yer salıb
Şəhidlərim məkanınız boş qalıb .

Nişanlının boynu bükük qalıbdı,
Anaları qəm -qüssəyə salıbdı.
Arzuları ,istəkləri solubdu,
Bağın, bağçan sizsiz solub saralıb,
Şəhidlərim məkanınız boş qalıb .

Güldən çələng toxuyuram daşına ,
Məzarın bürünüb yaz yağışına ,
Buludlar ağlayır sənin yaşına ,
Ad günündür dərd qəlbimdə yer salıb ,
Şəhidlərim məkanınız boş qalıb .

Bu gedişdən bütün dünyam ağlayır,
Dərd üstündə dərlər qabıq bağlayır,
Qızın çəkmələri yuyub saxlayır
Çəkmələrin geyilməmiş yaş qalıb
Şəhidlərim məkanınız boş qalıb.

## Mələk İsmayil

# Həyat Niyə Beləsən Sən

Ya cənnət ol, ya cəhənnəm,
Nə belə, nə eləsən sən.
Gah ağlayır, gah gülürük,
Bəlkə düzün deyəsən sən,
Həyat,niyə beləsən sən?

Artırırsan yükümüzü,
Qatlayırsan dizimizi.
Turşudursan üzümüzü,
Gözümüzdə giləsən sən,
Həyat,niyə beləsən sən?

Baş açmırıq heç işindən,
Əl çəkmirsən vərdişindən.
Qopa bilmirik dişindən,
Hansı səmtə ,yönəsən sən,
Həyat,niyə beləsən sən?

Başımızda turp əkirsən,
Kimin nazını çəkirsən?
Gah qurursan,gah sökürsən,
Boğazda bir tikəsən sən,
Həyat ,niyə beləsən sən?

Dərdi dərdə calayırsan,
Birdən-birə talayırsan.
Kimə quyruq bulayırsan?
Sualsan, vəsvəsəsən sən,
Həyat , niyə beləsən sən?

Daş üstündə daş qoymursan,
Gözümüzdə yaş qoymursan.
Bu qədər yeyir doymursan,
Qımışasan, güləsən sən,
Həyat, niyə beləsən sən?

Alırsan bircə balanı ,
Ağladırsan tək ananı.
Odur olanı, qalanı,
Söylə kimə köləsən sən,.
Həyat, niyə beləsən sən?

Ovçu kimi qarmağın var,
İlan kimi çalmağın var.
Bağrımızı yarmağın var,
Gah bəmə, gah ziləsən sən,
Həyat, niyə beləsən sən?

Çox düşündük fikrə daldıq,
Şəhid verdik torpaq aldıq,
Kişi kimi zəfər çaldıq,
Fitnə-fəsad, hiyləsən sən,
Həyat, niyə beləsən sən?

Ağzımızda dadın qalıb,
Daha quru adın qalıb.
Korona vəlvələ salıb,
İndi bir nəfəsəsən sən,
Həyat , niyə beləsən sən?

Şirinliyin gedir daha,
Ümid qalmayır sabaha.
İşlər qalıb bir Allaha,
Qorxusan, səksəkəsən sən.
Həyat, niyə beləsən sən?

Qail oldu çoxa, aza,
Mələk yığılıb boğaza.
Çox oynadı hər avaza,
Demirəm daha nəsən sən,
Həyat, niyə beləsən sən?

## Zeynep Sümer

# Sebebi Sensin

Efkâra geldikçe müşkül halleri
Yazıyorsam elbet sebebi sensin...
Menzile varmayan taşlı yolları
Kazıyorsam elbet sebebi sensin...

Zalimce yıktın sen gönül bendimi
Hasretlik vuslatı yoksa yendi mi?
Aşk ile yoğurup kendi kendimi
Eziyorsam elbet sebebi sensin...

Seni tanıdığım o günden beri
Kimi "deli" dedi, kimi "serseri"
Yaralı kalbime derdi, kederi
Diziyorsam elbet sebebi sensin...

Demedim kimseye çektiklerimi
Yerle yeksan ettim ektiklerimi
Hep senin yüzünden sevdiklerimi
Üzüyorsam elbet sebebi sensin...

Seraba aldanıp, hayale kanıp
Her ayak sesinde sen geldin sanıp
Vallahi Billahi candan usanıp
Beziyorsam eğer sebebi sensin ...

Sevdamı vurmuşsa dolu, kırağı
Bunlar da bir nevi aşkın tuzağı
Buğulu gözlerle baştan aşağı
Süzüyorsam elbet sebebi sensin ...

Benliğime taktın gamdan bilezik
Ahvalim perişan, yüreğim ezik
Bütün anılara koca bir çizik
Çiziyorsam elbet sebebi sensin ...

Zeynep'in geçiyor gençlik çağları
Sararıp soluyor yeşil bağları
Dertleri yüklenip yüce dağları
Geziyorsam elbet sebebi sensin.

## Go'zal Ismatova

# İkki Begona

Bir shaharda - ikki begona!
Dengiz, Quyosh, Nargiz gullari!
Bo'layapman balki devona,
Meni yutar İzmir yo'llari...

Boray desam noma'lum manzil.
Sog'inch o'ti dilim yoqadi.
Goh kulaman, qilaman hazil,
Ko'zlarimdan yomg'ir yog'adi...

Bir shaharda -ikki begona!
Sen emasmi - eng Aziz inson!
To'lib borar sekin paymona,
O'ldirmoqda balkida hijron!

Bir shaharda - ikki begona!
Qo'llaringda kelgin - beray jon.
Bir shaharda - ikki begona,
Bir umrga bo'lmagin – Armon !!!

Nailə Şahverdi

# Ucalır Göylərdə Şanlı Bayrağın

Gözün aydın olsun, ey ana Vətən,
Geriyə çəkildi o azğın düşmən.
İşğalda deyilsən, nəhayət ki, sən.
Azad nəfəs alır çəmənin, dağın,
Ucalır göylərə şanlı bayrağın.

Sülh əldə elədik, bu da bir gerçək,
Fərəhlən, ağsaqqal, sevin, ağbirçək!
Hər bağın, hər bağçan açsın gül-çiçək,
Nur saçsın hər zaman sənin çırağın.
Ucalır göylərə şanlı bayrağın.

Çoxdan gözləyirdik bu gözəl anı,
Zəfərlə qurtaran ən şad zamanı.
Vermədik heç kimə Azərbaycanı.
Qoy yansın əbədi odun, ocağın,
Ucalır göylərdə şanlı bayrağın.

Mərd, igid oğullar dağıdır, sökür,
O mənfur düşmənin belini bükür.
Azadıq, xoşbaxtıq Allaha şükür!
Yenə də bizimdir cənnət torpağın,
Ucalır göylərə şanlı bayrağın.

Lutviyyə Əsgərzadə

# Bu Gecə

Bu gecə intizarın,
Yuxumu gözdən aldı.
Baxışlarım dıкildi.
Pəncərənizdə qaldı.

Baxdım aylı göylərə,
Göylər çiçək açıb, nə?
Bir sifariş yolladım,
Ulduzlardan, dedi, nə?

Yenə gülümsəyir  Ay,
Yada düşür, ötən yay.
Yenə ulduz axdı,  ay...
Mən ölsəm, bir denə, vay!!

## Zərəngiz Dəmirçi Qayalı

# Qələbə Köynəyi

(Şəhidlərimizin xatirəsinə)

Bu ucalan bayrağım,
Qəlbimə qürur məim!
Ana Vətən eşqiylə,
Ürəyim vurur mənim!

Mavi mənim göyümdür,
Al qanım hər şeyimdir,
Yaşıl-cənnət torpağım,
Uca sərvi boyumdur!

Vətən andı işməyim,
Varlığımdan keçməyim,
Şəhid yolu seçməyim,
Müqəddəs diləyimdir!

Yola çıxdım, uğura!
Qəhrəmanlar doğula!
Qələbəyə çağıran,
Əslim, köküm, soyumdur!

Dalğalan, uca bayraq!
Min yaşa, ana torpaq!
Səni qanla suvarmaq,
Arzumdu, diləyimdi!

Vətən dedim, ünlədim!
Zərəngizi dinlədim!
Sabaha qalan ömrüm,
Qələbə köynəyimdi!
Qələbə köynəyimdi!

Səringül Sadə

# Dilim Mənim

Ünsiyyətin açarıdı,
Xalqımızın vüqarıdı,
Tanrımızın nübarıdı,
Doğma, əziz dilim mənim.

Qovuşdurur yarı yara,
Xitam verir qəm-qübara,
Hər bir anada gəlir kara,
Zəngin, təmiz dilim mənim.

Çox qədimdir, çox uludur,
Hikmət ilə o doludur,
Millətimin simvoludur,
Əngin dəniz dilim mənim.

Üzümüzə açıbdı dan,
Olsun ona canım qurban,
Türk diliylə yaranışdan,
Olub əkiz dilim mənim.

Eyləyibdi dərdini şən,
Azərbaycan ona Vətən,
Səringüləm, önündə mən,
Çökərəm diz, dilim mənim!

## Həvva Nazim

# Qələbələr Çala

Yaradanım gözəlliyi bol versin,
Gül yaraşar hər yamaca, yala ha.
Hər insana hamar, dümdüz yol versin,
Düzülməsin daş cığıra, yola ha.

Acı sözlər kövrək qəlbə bir oxdur,
Söz getdimi, dönməsinə yol yoxdur.
Dünyamızda dərdli insan nə çoxdur,
Yığ dərdləri, ver atəşə, qala ha.

Kasıba nə varlıların dəbindən?
Qazanc çıxır sanki dəniz dibindən,
Heç bir cavan utanmasın cibindən,
Dost -tanışdan qoy qalmasın dala ha.

Bu dünyada anılarsan rəhmətlə,
Hər kəs ilə bil, davransan hörmətlə,
Halal çörək qazanılar zəhmətlə,
Qüvvət versin Rəbbim ələ, qola ha.

Hər alına zəhmət təri bulana,
Halal ömrə, Həvva, ömür calana,
Yer üzündə haqq-ədalət dolana,
Xeyir şərə qələbələr çala ha.

## Səidə Əliyeva

# Vaxtında Tanı

Dağın zirvəsini aşmaq istəsən
Vaxtında tanı dostu, düşməni sən.
Yeri gələndə qorxub çəkinmədən,
Deyə bilməlisən öz sözünü sən
Çalış hər cavabı vaxtında ver sən.

Nə çox nankor, qəlbiqara, paxıllar,
Qəsdinə duranlar qəlbini qırar.
Qorxma ki, köksünü yaralayarlar
Qınında parlayan qılınc kimi sən
Doğrayıb, hər an şimşək kimi sən.

İnanıb nadanlara sirrini vermə
Güvənmə qədirbilməzlərə əbəs.
Sahildə dayanıb gözünü döymə,
Dəryaya baş vurub ümmana tələs,
Öz hünərin, amalın, cəsarətinlə.

Dəyişib zəmanə, etibar hanı?
Kimə arxalanıb bel bağlayasan?
Səni özünkündən qorusun Tanrı
Düşməninlə özün də bacararsan,
Çalış ki, hamını vaxtında tanı.

Gözündə həsrət, nisgil yuva qurar
Bir dəniz təlatüm, qəlbində qübar
Toxunsan bir dəli fəryad qoparar,
Dünyada nə çox etibarlı dostlar,
Nəbzini tut, həyatın vaxtında barı.

Dosta vəfalı ol, xəyanət etmə
Kimsənin sözünü özgəyə demə.
Vaxtını boş ötürmə, sərf et elmə
Hörmət qazan ağıl, mərifətinlə,
Tanın dəyanətin, ləyaqətinlə.